

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 fevral 2022-ci il №14 (2625) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram**:

1. 2004-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2022-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2022-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 fevral 2022-ci il

## Bu günə qədər “YAŞAT” Fondu tərəfindən 165 qazimiz müalicə üçün Türkiyəyə göndərilib

***Bu günə qədər "YAŞAT" Fondu tərəfindən 165 qazimiz müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 121-nin müalicə proseduru uğurla yekunlaşıb və Vətənə qayıdıblar.***

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib.

*Təlim*

# “Təlimlər döyüş hazırlığımızı yüksək səviyyədə saxlayır”



***Şanlı qələbəmizlə tarixləşən İkinci Qarabağ müharibəsində ordumuzun yüksək döyüş hazırlığı və güclü maddi-texniki bazası Zəfərimizi şərtləndirən əsas amillərdən oldu. Bütün dünya gördü ki, Azərbaycan Ordusunun arsenalı ən müasir atıcı silahlarla və döyüş texnikalarıyla zəngindir. Həmçinin istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadir olan komandirləri, döyüş meydanında şücaət və igidlik nümayiş etdirən əsgərləri var. Rəşadətli ordumuzun 44 günə düşməni darmadağın edərək, torpaqlarımızı işğaldan azad etməsi ordu quruculuğuna dövlətimiz tərəfindən göstərilən yüksək diqqət və qayğının nəticəsidir. Dünya hərb tarixində silinməz iz qoyan bu möhtəşəm qələbəmiz müstəqil dövlətimizin və rəşadətli ordumuzun banisi olan ulu öndər Heydər Əliyev siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində apardığı uğurlu islahatların bəhrəsi idi.***

Ordu quruculuğu istiqamətində bu gün də uğurlu addımlar atılır, döyüş qabiliyyətinin daha da gücləndirilməsi üçün lazımi tədbirlər həyata keçirilir. Vətən müharibəsindən sonra bu istiqamətdə atılan uğurlu addımlardan biri də azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin əməliyyat və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, həmçinin xüsusi şəraitdə döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə əməliyyat (Komando) hərbi hissələrinin yaradılması oldu.

Komando hərbi hissələrindən birinin açılışında iştirak edən dövlət başçısının dediyi "Komando briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox Komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar. Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaqdır" sözləri ordumuza verilən dəyərin və göstərilən etimadın göstəricisidir. Ali Baş Komandanın bu qiymətli sözləri yeni yaradılan Komando heyətinə də böyük ruh yüksəkliyi aşıladı.

Yaradılan Komando bölmələrinin döyüş qabiliyyətinin və şəxsi heyətin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Azərbaycan ilə Türkiyə arasında imzalanmış "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə çərçivəsində hərbçilərimiz mütəmadi olaraq qardaş ölkədə keçirilən "Komando hazırlığı" kurslarını uğurla başa vuraraq, peşəkarlıq səviyyələrini daha da yüksəldirlər.

İşğaldan azad edilmiş ərazilərdə Komando hərbi hissəsinin bölmələrindən birinin təlimlərini izləmək imkanı tapırıq. Ərazi dağlıq reylefi ilə seçilir. Hər tərəf ağ örpəyə bürünüb. Sakit yağan qar dənəcikləri ayaq izlərimizi itirir. Təlim keçən Komandoları görməkdə çətinlik çəkirik. Relyefə uyğun maskalanaraq ərazi ilə həmrəng olan heyəti qayalar elə qoynuna alıb ki, sanki igidlərini 30 ilin həsrəti ilə qucaqlayıb. Hava şəraitinin yaratdığı çətinliyə baxmayaraq şəxsi heyətin təlimdə yüksək peşəkarlıq, çeviklik və bacarıq nümayiş etdirdiyinin şahidi oluruq.

**(Ardı 3-cü səhifədə)**

# HDQ-də kompleks yoxlamanın nəticələrinə dair xidməti müşavirə keçirilib





*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Hərbi Dəniz Qüvvələrində (HDQ) olub, qəfil yoxlama keçirib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, gəmi heyətləri "Həyəcan" siqnalı ilə qaldırılaraq döyüşə hazırolma vəziyyətinə gətirilib, döyüş zamanı komandirlərin çevik qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki vərdişləri, həmçinin şəxsi heyətin döyüş və taktiki-xüsusi hazırlığı yoxlanılıb.

General-polkovnik Kərim Vəliyevə hərbi gəmilərin və gəmi heyətlərinin yerləşməsi, döyüş hazırlığı və vaxta xidmətinin təşkili, həmçinin digər məsələlərlə bağlı ətraflı məlumat verilib.

Baş Qərargah rəisi HDQ-nin Hidroqrafiya İdarəsi, Təlim və Tədris Mərkəzində də olub, burada xidmətin təşkili və hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Sonra Müdafiə Nazirliyinin müvafiq baş idarə, idarə və HDQ-nin komandanlığının iştirakı ilə kompleks yoxlamanın yekun nəticələrinə dair xidməti müşavirə keçirilib.

Görülmüş işlərin təhlilini aparan general-polkovnik Kərim Vəliyev döyüş gəmilərinin və gəmi heyətlərinin hazırlığını müsbət qiymətləndirib, bu nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində əldə edildiyini xüsusi vurğulayıb. Qeyd olunub ki, Vətən müharibəsində HDQ-nin şəxsi heyəti Ali Baş Komandan tərəfindən qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib, torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında yüksək peşəkarlıq nümayiş etdirib.

Baş Qərargah rəisi cari ilin yay aylarında Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda keçiriləcək təlimlərə hazırlıq, o cümlədən dəniz piyadalarının seçilməsinə, onların bilik və bacarıqlarının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməsi və digər məsələlərlə bağlı müvafiq göstərişlər verib.

Sonda general-polkovnik Kərim Vəliyev HDQ-nin döyüş, mənəvi-psixoloji hazırlıq səviyyəsinin daha da artırılması, hərbi intizamın möhkəmləndirilməsi, eləcə də maddi-texniki təminat məsələləri ilə əlaqədar müdafiə nazirinin tapşırıqlarını komandanlığa çatdırıb.







# Hərbi hissələrin döyüşə hazırolma vəziyyəti yoxlanılıb

*Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının, o cümlədən Hərbi Dəniz Qüvvələrinin hərbi hissə və birləşmələrində bölmələrin döyüşə hazırolma vəziyyəti qəfil yoxlanılıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qoxlamalar zamanı "Həyəcan" siqnalı ilə qaldırılaraq təyinat rayonuna çıxarılan tank bölmələrinin tapşırıqları dəqiqləşdirilib. Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları və hərbi gəmilərin heyətləri tərəfindən Xəzər dənizinin Azərbaycana məxsus sektorunda əməliyyat şəraiti, eləcə də strateji təyinatlı infrastrukturların mühafizəsi üzrə döyüş tapşırıqları barədə məruzələr dinlənilib.

Yoxlamaların keçirilməsində əsas məqsəd qoşun növü bölmələrinin qarşılıqlı əlaqədə döyüşə hazırolma vəziyyətinə gətirilmə vərdişlərinin, eləcə də komandir heyətinin yaranmış şəraitə uyğun vəziyyəti qiymətləndirmə və çevik qərar qəbuletmə bacarıqlarının təkmilləşdirilməsidir.



# "Nəsillərin görüşü" adlı növbəti tədbir keçirilib





Fevralın 16-da Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) və Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının birgə təşkilatçılığı ilə "Nəsillərin görüşü" adlı tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Müdafiə Nazirliyinin zabiti polkovnik Elşad Əbilov, BŞGİBİ-nin rəisi Raqif Abbasov, Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov, qazilər, müharibə veteranları və gənclər iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

BŞGİBİ-nin rəisi Raqif Abbasov çıxış edərək 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərin xalqımızın tarixində müstəsna rol oynadığını bildirib. O, xalqımızı bu Zəfərə qovuşduran Müzəffər Ali Baş Komandana, şanlı ordumuza minnətdarlığını ifadə edərək, Vətən müharibəsində qazanılan parlaq Qələbədə ölkə gəncliyinin də yaxından iştirak etdiyini, dövlətimizin ərazi bütövlüyünün bərpasına böyük töhfə verdiyini qeyd edib.

Tədbirdə çıxış edən veteranlar və dövlət qurumlarının nümayəndələri də Vətən müharibəsindəki tarixi Qələbənin Azərbaycan xalqının həyatında həlledici rol oynadığını, dövlətimizin gücünə güc qatdığını, onun inkişafı üçün geniş perspektivlər açdığını bildiriblər.

# "Təlimlər döyüş hazırlığımızı yüksək səviyyədə saxlayır"





(Əvvəli 1-ci səhifədə)

Təlimin gedişatına nəzarət edən, öz təcrübəsini, bilik və bacarıqlarını şəxsi heyətə aşılayan zabit Fuad Qasımov onların Ali Baş Komandanın yeni döyüş tapşırıqlarının icrasına hər an hazır olduğunu bildirdi. Zabit keçirilən təlimlər haqqında məlumat verdi. "Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Komando hərbi hissələrində mütəmadi olaraq taktiki-xüsusi təlimlər keçirilir. Sərt iqlim şəraitində və kəskin relyefli ərazilərdə müxtəlif yerdəyişmə üsulları icra olunur. Hərəkət zamanı şərti düşmənin təxribat-diversiya qrupu tərəfindən pusquya düşən komandolar çevik qərar qəbul edərək pusqunu dəf etmə və ərazidə kəşfiyyat aparma qaydalarını məşq edirlər. Keçirilən təlimlərin əsas məqsədi şəxsi heyətin atıcı silahlardan istifadəetmə bacarıqlarının və taktiki vərdişlərinin artırılması, Komando bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də komandir heyətinin bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsidir. Komandolar təlimdə yüksək peşəkarlıq nümayiş etdirərək bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirirlər".

Zabit, həmçinin alınan yeni tırtıllı və xizəkli texnikaların köməyi ilə şəxsi heyətin qarla örtülmüş ərazilərdə təlimlərini uğurla davam etdirdiyini vurğuladı. Təlimi izlədikcə zabit F.Qasımovun dediklərinin əyani şahidi oluruq. Bölmə verilən tapşırıqları cəld və çevik yerinə yetirir. Hava şəraitinin yaratdığı çətinlik onlara mane ola bilmir. Hər biri təlim meydanında cəldlik, əzmkarlıq və bacarıq nümayiş etdirir.

Təcrübə və təlim-məşqlərsiz nəzəriyyəni təsəvvür belə etmək mümkün deyil. Bir işdə uğur qazanmağın açarı nəzəri biliklərin təcrübədə sınaqdan keçirilməsindədir. Məşhur italiyalı rəssam, alim Leonardo Da Vinçinin dediyi "Elm sərkərdə, təcrübə isə onun əsgəridir", kimyəvi elementlərin dövri cədvəlinin yaradıcısı, rusiyalı alim D.İ.Mendeleyevin "Nəzəriyyə elmin ruhu, təcrübə bədənidir" və digər bu qəbildən kəlamlar təcrübənin mahiyyətini açıq-aşkar bildirir. Ona görə də mütəmadi keçirilən belə təlim-məşqlər hərbçilərimizin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasında mühüm rol oynayır. Təlimi izlədikcə bu kəlamların nə dərəcə qüdrətli və dəyərli sözlər olduğunu bir daha anlayırıq.

Təlim başa çatdıqdan sonra komandolardan bir neçəsi ilə həmsöhbət olur, düşüncələrini qeyd edirəm. Leytenant Bəhruz Əliyev Cəmşid Naxçıvanski adına hərbi liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Vətən müharibəsinin iştirakçısı olan zabit döyüş hazırlığının artırılmasında keçirilən təlimlərin mahiyyətindən danışır. "Bizim üçün yaradılan şərait və hərtərəfli təminat intensiv təlim-məşqlərin keçirilməsinə imkan verir. Vətən müharibəsində əldə edilən təcrübələr nəzərə alınmaqla, keçirilən təlimlər döyüş hazırlığımızı yüksək səviyyədə saxlayır və praktiki vərdişlərimizin daha da təkmilləşdirilməsini təmin edir. Real döyüş şəraitinə maksimum uyğunlaşdırılmış şərtlərlə keçirilən məşğələlərdə müxtəlif yerdəyişmələr icra edirik. Təlimlərdə manelər zolağından keçid, dağlıq ərazilərdə döyüş aparma, müdafiənin dərinliyinə sızma, eləcə də şərti düşmənin müvəqqəti yerləşdiyi sığınacaqlarda və yaşayış məntəqələrində müqavimət göstərən təxribat-diversiya qrupunu mühasirəyə alma, zərərsizləşdirmə və digər tapşırıqları icra edirik. Hər birimiz Komando hərbi hissəsində xidmət etməkdən qürur duyur, keçirilən təlim-məşqlərdə həvəslə iştirak edirik. Plana uyğun olaraq verilən bütün tapşırıqları müvəffəqiyyətlə icra etməyə səy göstəririk".

Gənc zabitimizə şərəfli xidmətində uğurlar arzulayır, 20 ilə yaxındır ordu sıralarında xidmət edən gizir Qasımxan Bəhrəmovla salamlaşıram. Təcrübəli gizir həm Aprel döyüşlərinin, həm də İkinci Qarabağ müharibəsində iştirak edib. Müzəffər Ali Baş Komandan tərəfindən bir neçə medalla təltif olunub. "Hava şəraitindən asılı olmayaraq təlimlərimiz mütəmadi olaraq davam edir. Vətən müharibəsində qazanılan təcrübələri daha da möhkəmləndirir, döyüş hazırlığımızı daim yüksək səviyyədə saxlayırıq. Cənab Prezidentimizin tapşırığı ilə Komando hərbi hissələrinin yaradılmasını eşidəndə, könüllü olaraq burada xidmət etmək istədim. Silahdaşlarımla birlikdə seçimlərdən keçərək qardaş ölkədə keçirilən "Komando hazırlığı" kursunu uğurla başa vurdum. Sevincliyəm ki, şərəfli peşə sahibiyəm, həm də işğaldan azad edilmiş ərazilərimizdə xidmət aparıram. Qarşı tərəf öz xain əməllərindən əl çəkmir. Düşmən bilsin ki, buradayıq, Vətənimizin keşiyindəyik, istənilən təxribatın qarşısını almağa hazırıq. Xidmət yerimizin reylefindən asılı olaraq dağ təlimlərimiz səngimir. Mütəmadi dağlarda hücum, müdafiə, manevr, düşmənin pusquya salınması, terror qruplarının məhv edilməsi və digər tapşırıqlar üzrə fəaliyyətlər icra edərək, bacarıq və təcrübələrimizi artırırıq", - deyə Qasımxan Bəhrəmov bildirir.

Kiçik çavuş Nicat Yusubov, çavuşlar Səbuhi Əliyev, Əli Tağıyev, Nihad Yusifzadə və digərləri də təlimdə uğurla iştirak edirlər. Onlar da həmkarları kimi belə təlimlərin mahiyyətinə vararaq, istənilən hərbi əməliyyatı uğurla başa vurmaq üçün keçirilən təlim-məşqlərin vacibliyini bir daha vurğulayırlar. Məşğələlərdə yorulmadan, ruh yüksəkliyi və əzmkarlıqla iştirak etdiklərini bildirirlər. Həmçinin rəşadətli, qalib ordunun komandoları olmaqdan qürurlandıqlarını deyirlər.

İzlədiyimiz təlim-məşqlər və şəxsi heyətin qətiyyətli sözləri könül xoşluğu yaratdı. Döyüş hazırlıqları, peşəkarlıqları ilə yanaşı, mənəvi-psixoloji durumlarının da yüksək olduğu hiss olunur. Şahidi olduqlarım həm də onun göstəricisi olur ki, dövlət başçısının tapşırığına əsasən Azərbaycan Ordusunda həyata keçirilən islahatlar çərçivəsində yeni yaradılan Komando hərbi hissələrinin xidməti döyüş fəaliyyətinin təşkilinə xüsusi diqqət yetirilir.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Vətən müharibəsi şəhidlərinin xatirəsi anıldı



*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində ərazi bütövlüyümüz uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək şəhidlik zirvəsinə yüksələn leytenant İbrahim Əliyevin, əsgərlər Səid Ədilovun və Elməddin Hüseynzadənin xatirələri anıldı.*

Tədbirdə Müdafiə Nazirliyi və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, dostları və qohumları iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbir iştirakçılarına şəhidlərin şərəfli ömür və döyüş yoluna həsr olunan videoçarx nümayiş etdirildi.

Şəhid leytenant İbrahim Əliyevin atası Mustafa Əliyev təşkil olunan tədbir üçün Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi. "İbrahim kimi cəsur oğullarımız sayəsində illərdir işğalda qalan torpaqlarımız Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında azad edildi. Torpaq həsrətinə son qoyuldu".

Şəhid İ.Əliyevin anası Xəzəngül xanım belə mərasimlərin keçirilməsinin şəhid valideynləri üçün təsəlli olduğunu qeyd edərək, Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirdi.

Şəhid əsgər Səid Əbilovun atası Həsən Əbilov şəhidə və şəhidliyə olan ehtiramdan söz açaraq bildirdi ki, şəhidlər qəhrəmanlıq göstərib, canı bahasına torpaqlarımızı azad ediblər. Bütün şəhid ailələri və müharibə qazilərinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə şəhid ailələri adından öz dərin minnətdarlığını bildirdi.

Şəhidin anası Əzizə xanım vurğuladı ki, Səid kimi digər qəhrəman oğullarımız aramızda olmasa belə, onların ruhu daim bizimlədir. Çünki şəhidlər ölməzdir. Onlar Vətənimizin bütövlüyü uğrunda şəhid olublar.



Digər çıxış edənlər şəhidlərimizin torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edərək, qarşıya qoyulan bütün döyüş tapşırıqlarının icrası zamanı vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirməsindən, igidliklərindən, şücaətlərindən danışdılar.

Mərasim Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında səslənən vətənpərvərlik mahnıları ilə başa çatdı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

## "Azərbaycan və Türkiyə dünyadan "Xocalıya ədalət!" tələbini davam etdirməlidir"

Xocalı soyqırımı müasir dünyanın gözü qarşısında törədilən insanlığın üz qarasıdır. Otuz ildə acımız azalmadı. Ötən 30 ildə Leyla Əliyevanın rəhbərliyi ilə "Xocalıya ədalət!" beynəlxalq kompaniyası çərçivəsində böyük işlər görülüb. Lakin təəssüf ki, hələ də dünya ictimaiyyəti "Xocalıya ədalət!" deməyib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə təmsilçisi Hulusi Kılıç bildirib.

Prezident İlham Əliyevin Xocalı soyqırımının otuzuncu ildönümü haqqında imzaladığı məlum Sərəncamını xatırladan səfir Hulusi Kılıç deyib ki, Azərbaycan Xocalı soyqırımının intiqamını 44 günlük Vətən müharibəsində mərdi-mərdanə döyüş meydanında alıb. Lakin Azərbaycan və Türkiyə bir yerdə bütün dünyadan "Xocalıya ədalət!" tələbini davam etdirməlidir.

*Medallı igidlərimiz*

## "Məskənimiz həmişə zirvələr olacaq"

İllərdən bəri erməni işğalçılarının əsarətində qalmış torpaqlarımızın Vətən müharibəsi nəticəsində azad olunmasına hamımız sevindik, qəlbimiz fərəh və qürurla doldu. Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində qəhrəmanlıqlar göstərərək düşməni məhv etdi. Xalqımıza böyük sevinc yaşatdı. Vətən müharibəsində xalqımıza sevinc yaşadanlardan biri də polkovnik-leytenant Aqil İsmayılovdur. Təcrübəli zabitin döyüş yolu Cəbrayıldan, Xocavənddən, Füzulidən və mədəniyyət beşiyimiz olan Şuşadan keçib. Əks-hücum əməliyyatları zamanı üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Cəsarəti ilə tabeliyindəki zabit və əsgərlərə nümunə olub, onları qələbələrə ruhlandırıb. İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə görə polkovnik-leytenant İsmayılov Aqil Yaşar oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Zabit Aqil İsmayılovla söhbətimiz zamanı onun ömür və döyüş yolu ilə yaxından tanış olduq. Öyrəndik ki, Aqil əslən Cəbrayıl rayonundandır. 80-ci illərdə ailəsi Beyləqan rayonuna köçüb. Gələcəyin cəsur zabiti 29 sentyabr 1977-ci ildə Beyləqanda dünyaya göz açıb. 4 nömrəli orta məktəbdə oxuyub. 1993-cü ilin iyulunda Cəbrayılın - doğma ata-baba ocaqlarının ermənilər tərəfindən işğal olunması onu sarsıdıb. Həmin günlərdə hərbçi olacağına qərar verib. 1994-cü ildə orta təhsilini başa vurduqdan sonra Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə üz tutub. 1998-ci ildə hərbi təhsilini bitirdikdən sonra "N" hərbi hissəsində taqım komandiri kimi



xidmətə başlayıb. Uzun illər xidməti vəzifəsini cəbhə bölgələrində yerləşən hərbi hissələrdə yerinə yetirib. 2016-cı ildə ordumuz üçün uğurla başa çatan Aprel döyüşlərində iştirak edib. Cəsur zabit böyük strateji əhəmiyyətə malik olan Lələtəpə yüksəkliyinin azad olunmasında hünər göstərib. Əməliyyat zamanı yaxınlığında mərmi partlamasından yaralansa da, döyüşdən çıxmayıb, yüksəklik uğrunda sonadək vuruşub. Böyük sevinc içində Lələtəpənin zirvəsinə qalxıb, doğma Cəbrayıl torpaqlarını həsrətlə süzüb. Günlərin birində işğalda qalan o yerlərin də azad olunacağına inanıb.

Aprel döyüşlərinin iştirakçılarından biri olan polkovnik-leytenant Aqil İsmayılov 2019-cu ildə ehtiyata buraxılıb. 27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində İkinci Qarabağ müharibəsinin başladığını eşidəndə Vətən uğrunda vuruşmağın zamanı yetişdiyini hiss edib. Uzun illər yurdumuzu işğalda saxlayan düşmənə olan nifrəti onu yenidən hərbi forma geyinməyə səsləyib. Həmin gündən də polkovnik-leytenant Aqil İsmayılovun şərəf dolu döyüş yolu başlayıb.

- Yurdumuzun azadlığı uğrunda müharibənin başladığını eşidən kimi özümü Vətənin əsgəri hiss etdim, - deyə zabit Aqil İsmayılov söhbətə başladı. - Ehtiyatda olsam da, Qarabağ döyüşlərində iştirak etməyə bilməzdim. Bunu Vətən mənə bağışlamazdı. Yurdumuzu ermənilərdən azad etmək hərbçi kimi mənim müqəddəs borcum idi. Bu borcu yerinə yetirməyin zamanı çatmışdı. Vaxt itirmədən hərbi forma geyinib cəbhə bölgəsinə yola düşdüm. "N" hərbi hissəsində komandanlığa müraciət edərək döyüşmək istədiyimi bildirdim. Müraciətim müsbət həll olundu. Məni ehtiyatdan döyüşə könüllü gəlmiş zabit və əsgərlərin tabor komandiri təyin etdilər. Biz döyüşlərə Xocavənd rayonunun ərazisində cəlb olunduq. Həmin günlərdə Hadrut qəsəbəsi uğrunda göyüşlər gedirdi. Düşmən müqavimət göstərir, geri çəkilmirdi. Zabit və əsgərlərimiz mətinliklə vuruşurdular. Çox keçmədi ki, qəsbkarlar əks-hücumlarımız qarşısında duruş gətirə bilməyib qaçmağa başladılar. Torpaqlarımız addım-addım işğaldan azad olunurdu. Döyüşlərin ilk günlərindən qələbə sevinci yaşayırdıq. Bir müddətdən sonra bizi Cəbrayıl və Füzuli istiqamətinə göndərdilər. Ata-baba yurdum Cəbrayıl uğrunda döyüşmək mənim üçün böyük şərəf idi.

Zabit Aqil İsmayılov daha sonra Şuşa ətrafında gedən döyüşlərdən danışdı. Dedi ki, Xocavəndin kəndlərini azad edə-edə Qarabağın tacı olan Şuşaya yaxınlaşırdıq. Düşmənin bu istiqamətə xeyli qüvvə topladığını öyrənmişdik. Qəsbkarların bu qüvvələrini darmadağın etməyə hazır idik. Noyabrın ilk günləri idi. Döyüşlər Şuşa istiqamətində gedirdi. Çaraqçı kəndinin ətrafındaydıq. İşğalçılar bu kəndi əldən vermək istəmirdilər. Çünki buradan yol bizi Şuşaya aparacaqdı. Böyük strateji əhəmiyyəti olan bu kənd uğrunda da qanlı döyüş getdi. Bu, iştirakçısı olduğum ən gərgin savaşlardan biri oldu. Düşməni Çaraqçı kəndindən də qovduq. Şuşaya gedən yollar açıldı. Bir dəqiqə olsun belə dayanmadan irəliləyirdik. Artıq komandanlıq taborumuza Ağdamdan Şuşaya gələn yolu nəzarətə götürməyi tapşırmışdı. Düşmənin diqqətini yayındırmaq üçün aldadıcı manevrlər edə-edə Şuşaya doğru irəliləyirdik. Azərbaycan əsgərindən qorxan işğalçılar geri çəkilirdi. Vuruşa-vuruşa Topxana meşəsini də keçdik. Meşədə düşmənin ciddi müqaviməti ilə qarşılaşsaq da, onları məhv etdik. Şuşa uğrunda qanlı döyüşlər oldu. Ermənilər şəhəri əllərində saxlamaq üçün bütün qüvvələrini səfərbər etmişdilər. Lakin yağılar bizimlə bacara bilmədilər. Şəxsi heyət böyük cəsarətlə vuruşdu. Nəticədə Şuşa erməni qəsbkarlarından azad olundu. Tarixi bir gün yaşadıq.

Qalib gəlmək, zəfər çalmaq gözəl hissdir. Vətən müharibəsində torpaqlarımızı ermənilərdən azad etdiyimizə görə bu gün alnımız açıq, başımız ucadır. Bundan sonra məskənimiz həmişə zirvələr olacaq. Heç vaxt zirvələrdən enməyəcəyik.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilən cinayətdir

***Ana bətnində ikən həyatı əlindən alınan körpə ürəyinin yaşamaq istəyirəm döyüntüsü, işgəncələrdən yaşarkən ölən qocanın "ölmək istəyirəm..." fəryadı olan Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sıradadır. Müsəlman sərkərdəsi Əmir Saleh "Qiyamət günü" əsərində yazır: "...İnsanları diri-diri yandıranları, uşaqları, şikəst qocaları, hamilə qadınları əzib məhv edən, öldürən, təhqir edən kəslərin əsil-nəcabətləri olmaz. Beləlri ilə yol getmək, süfrələrində çörək kəsmək, onlara yardımçı olmaq... bütün bunları mənsub olduğun millətə xəyanət sayıram".***

Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetirilməsi planı qabaqcadan hazırlanmışdı.

Ümummilli lider Lider Heydər Əliyev qeyd edirdi: "...1992-ci il fevralın 26-da qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi bu faciələrin ən dəhşətlisi oldu. Erməni hərbi birləşmələri 366-cı motoatıcı alayı ilə birlikdə qadınlara, uşaqlara, qocalara aman vermədən yüzlərlə insanı xüsusi vəhşiliklə qətlə yetirdi, onları hərb tarixində analoqu olmayan işgəncə verməklə öldürdü, təhqirlərə məruz qoydu. Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaq".

1991-ci ilin sonunda və 1992-ci ilin əvvəlində Ermənistanın Azərbaycana qarşı hücumları intensivləşir və 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri işğal olunmuş, fevralın ortalarında Qaradağlı kəndini, fevralın 17-də Xocavəndin Qaradağlı kəndini ələ keçirmişdilər. 30 oktyabr tarixində rayonla yerüstü əlaqə kəsilmiş, helikopter yeganə nəqliyyat vasitəsinə çevrilir. 1991-ci il sentyabrın 24-də Ağdamdan Xocalıya fəhlə gətirən avtobus Əsgəranda daşqalaq edildi. Hər gecə Xocalı "Alazan" və "Kristall" raket qurğularından atəşə tutulurdu.

Xankəndidən 10 kilometr Cənub-Şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən Xocalı fevralın ikinci yarısından başlayaraq, Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürülmüşdü. Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Sələkətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı, Qazax rayonunun Bağanis-Ayrım kəndlərinin işğalı zamanı əhalinin bir hissəsi plana uyğun qəddarlıqla qətlə yetirilmişdi.

1992-ci il yanvarın 28-də "Azərbaycana məxsus Mİ-8 markalı mülki helikopter Dağlıq Qarabağ səmasında erməni hərbi birləşmələri tərəfindən vurulmuş, helikopterin sərnişinləri olan 47 azərbaycanlı həlak olmuşdu. Bundan sonra şəhərlə hava əlaqəsi də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilməsinin qarşısı alınmışdı. Şəhəri yalnız atıcı silahları olan yerli özünümüdafiə dəstələri qoruyurdular.

1992-ci ilin yanvarından etibarən şəhərə elektrik təchizatı kəsilmişdi. Fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transportyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə alır.

Güclü artilleriya atəşlərindən sonra erməni hərbi birləşmələri bütün beynəlxalq hüquq normalarını pozaraq, mühasirədəki Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeritmiş, ilk növbədə yaşayış massivində yerləşən kazarma və müdafiə nöqtələrini dağıtmış, keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə azərbaycanlılara qarşı dəhşətli soyqırımı törəmişlər. Piyada dəstələr şəhərə fevralın 26-sı gecə saat 01:00-04:00 arası girmişdirlər. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soyub, müxtəlif əzalarını kəsib, körpə uşaqların gözlərini çıxarıb, hamilə qadınların qarınlarını yarıb, insanları diri-diri torpağa basdırıb və ya yandırıb, meyitlərin bir qismini minalayıblar. Dəhşətli cinayət əməli nəticəsində 613 nəfər vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb.

Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti (1992 may - 1993 iyun) dövründə davam edən yeni hakimiyyət çəkişmələri zamanı 1992-ci ilin mayında erməni hərbi birləşmələri Şuşanı ələ keçirir, daha sonra Laçın rayonu, 1993-cü ildə Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal edirlər.

Rejissor Yadigari yazır: "...Mən bütün bunlar haqqında, ermənilərin - Şuşada, Xocalıda gəzib-dolaşan, öldürülmüş adamları təhqir edən ermənilərin və rusların "Lur" informasiya Agentliyinə danışdım... Onları unuda bilmirəm. Ölüləri soymaqla, onlara işgəncələr verməklə məşğul idilər. Mən qərara aldım ki, Xocalı və Şuşa haqqında çəkdiyimi heç olmazsa, Türkiyəyə ötürə bilim...".

Professor Kennet Olden 1997-ci ildə Ağ Evə ünvanlanmış hesabat sənədində yazır: "Xocalıda, müharibə baş verən ərazilərdə qızıl torpaqların və nadir bitki və heyvanatın, dərman preparatları üçün çiçəklərin, kolların tələf olması ilə yanaşı, böyük insan nəsillərinin də kökü kəsilib. Bu, Xocalıya müharibənin vurduğu ən eybəcər yaralardan biridir...".

Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər əlil olmuşdu. Qaçqın və köçkünlərin sayı milyonu keçmişdi. Erməni işğalçıları tərəfindən 4.861 nəfər azərbaycanlı, o cümlədən 314 qadın, 58 uşaq və 255 qoca əsir və girov götürülmüşdü.

Erməni jurnalisti Daud Xeyriyan yazır: "...Martın 2-də ermənilərin "Qaflan" qrupu 100 nəfərdən çox türk meyitini yığıb Xocalıdan təqribən bir kilometr qərb istiqamətində yandırdı.... Sonuncu maşında təqribən 10 yaşında olan bir qız uşağı da gördüm. O, alnından və qollarından yara almışdı. Sir-sifəti göyərmiş bu uşaq hələ ölməmişdi. Aclığa və soyuğa, aldığı yaralara baxmayaraq ölməmişdi. Asta-asta nəfəs alırdı. Ölümlə çarpışan bu uşağın gözlərini unuda bilmirəm... Bir azdan onu da "Qaflançıların səyyar ölüm ocaqları"nda yandıracaqdılar. Heysiz-hərəkətsiz uzanmış, dırnaqlarından qan süzülən bu uşağı Tiqranyan çağırılan bir əsgər qalaqlanmış meyitlərin üstünə atdı...

...Sonra bu insan qalağına od vurdular. Bu zaman elə zənn etdim ki, yanan meyitlərin içərisində kimsə qışqırır. Aman və imdad diləyir..."

1992-ci il mayın 18-də saat 13.50-də Laçın ərazisindəki Qarıqışlaq kəndində səkkiz qız uşağı güllələnir, məlumata görə, bunlar, V.Bennet tərəfindən lentə köçürülür.

İlk dəfə olaraq, erməni silahlılarının törətdiyi qırğın barədə məlumatı fotolarla birgə Rəhbər Bəşiroğlu "Milliyyət" qəzetinə ötürdü. Türkiyənin qəzetinin martın 4-ünə olan manşeti bütövlükdə Xocalı soyqırımına həsr edilmişdi.

1992-ci il 12 iyunda, Rusiyanın "Svoboda" qəzeti “Faciəni törədənlərə haqq qazandırıla bilməz" başlıqlı məqalədə Moskvada yerləşən insan haqları üzrə Memorial qrupunun 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə hərbi birləşmələr tərəfindən Xocalının işğalı zamanı insan hüquqlarının kütləvi şəkildə pozulmasına dair hesabatına geniş yer ayırmışdı.

28 fevral tarixində tərkibində jurnalistlər də olan qrup iki helikopterlə azərbaycanlıların kütləvi qətlə yetirildiyi ərazilərə çata bildilər. İkinci helikopterin havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq dörd meyiti götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərdən ibarət qrup hadisə yerində olduqda onların müşahidə etdiyi vəziyyət daha da dəhşətli olmuşdur: meyitlərə xəsarətlər yetirilmiş və baş dəriləri soyularaq götürülmüşdür. Meyitləri yığan döyüşçülər artıq yüksəklikdə olanda Çingiz Mustafayevin helikopterlə gəlişinin şahidi oldular.

Ermənilər helikopteri atəşə tutur Çingiz döyüş meydanında düşmənlə üz-üzə tək qalmışdı. Çingiz Mustafayevin sözlərinə görə, o, ilk dəfə fevralın 28-i əraziyə helikopterlə gələndə təxminən 500 metr radiusunda havadan cəsədlərlə dolu meydança var idi. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin qısa müddətli hərbi jurnalist karyerasında ən vacib xidməti Xocalıda törədilən vəhşilikləri lentə alması, Xocalı soyqırımını işıqlandırması olmuşdur. Çingiz Mustafayevin dediyi kimi, ölənlər arasında "2 yaşla 15 yaş arası onlarla uşaq, qadın, yaşlı var idi, çoxuna isə alnının tən ortasına yaxın məsafədən atəş açılmışdı. Cəsədlərin vəziyyəti onu göstərirdi ki, insanların çoxu soyuqqanlılıqla, qəsdən öldürülüb, heç bir mübarizə, yaxud qaçmağa cəhdin əlaməti yox idi. Bəzilərini kənara çəkib təkbaşına güllələmişdilər; bəzi hallarda isə bütün ailənin birdən güllələndiyi görünürdü. Bəzi cəsədlərdə bir neçə yara izi var idi ki, bunlardan biri həmişə başda olurdu, bu da yaralının öldürüldüyünü sübut edirdi. Uşaqların qulaqlarını kəsmişdilər; orta yaşlı qadının üzünün sol tərəfinin dərisi, kişilərin isə başlarının dərisi soyulmuşdu. Üstü-başı qarət edildiyi açıq-aşkar görünən cəsədlər var idi".

Xocalı soyqırımı zamanı həlak olanların meyitlərinin döyüş meydanından çıxarılmasında və azərbaycanlı əsirlərin erməni işğalçı əsgərlərin meyitləri və əsirləri ilə dəyişdirilərək azad edilməsində böyük xidməti olmuş Allahverdi Bağırovun üç gün ərzində 1003 Xocalı əsirini ermənilərin əlindən xilas etmişdi. Cəsədləri Ağdam məscidində kəfənə tutdurub torpağa tapşırırdı, Ağdamın Qarağacı qəbiristanlığında Azərbaycan əsirləri təhvil aldı. Bəzi meyitlərinsə ayaqlarına kəndir, məftil bağlayıb maşının arxasınca sürümüşdülər.

Polkovnik V.Savelyev yazır: "Mən on addımlığımda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim. Allahın mənə lənət edəcəyi gündən qorxuram".

Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmışdı. 1993-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə fevralın 26-sı tarixi Xocalı soyqırımı günü kimi qəbul olunur.

Ümummilli lider Heydər Əliyev söyləyirdi: "...Xocalı faciəsi bir tərəfdən erməni işğalçılarının vəhşiliyinin nəticəsi olubsa, ikinci tərəfdən də bizim dövlət orqanlarının, o vaxt respublikaya rəhbərlik edən səlahiyyətli şəxslərin cinayətkarlığı, etdiyi cinayətlər nəticəsində və hətta deyə bilərəm, xəyanətləri nəticəsində olubdur. Ona görə də biz bu soyqırımını pisləmək, ermənilərin bu vəhşiliyini dünyada göstərmək, yaymaq, onları bir vəhşi kimi ifşa etməklə yanaşı, eyni zamanda, özümüzün özümüzə etdiyimiz cinayəti, xəyanəti də aşkar etməliyik. Bu cinayətlər də, bu xəyanətlər də göz qabağındadır. Bu gün burada danışanların hamısı, xüsusən Xocalının icra hakimiyyəti başçısı çox ətraflı məlumat verdi. Bunlar bu cinayətləri, bizim öz tərəfimizdən, yəni Azərbaycanın ayrı-ayrı dövlət nümayəndələri tərəfindən, xüsusən də dövlət başçısı tərəfindən olan cinayətləri və xəyanətkarlığı bir daha sözsüz sübut edir. Ancaq budörd il müddətində mən hesab edirəm ki, bir günah da, bir böyük qüsur da var. O da ondan ibarətdir ki, bu xəyanətin, bu cinayətin üstünü örtüb-basdırmağa çalışıblar. Mən belə bir qənaətə gəlirəm ki, buna bir çox tərəflərin marağı olubdur. Burada deyildi və mən bu fikirlərlə razıyam ki, məsələn, bu Xocalı faciəsi təkcə o vaxt hakimiyyətdə olanların cinayəti və xəyanətkarlığı nəticəsində deyil, eyni zamanda o vaxt hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin öz xalqına etdiyi xəyanətin və cinayətin nəticəsində olubdur. Ona görə dəbu məsələnin, bu cinayətin, bu xəyanətkarlığın tamamilə açılmasında, aşkar olmasında nə o tərəfin, nə bu tərəfin marağı olmayıbdır.Mən sentyabrın birinci günlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsini öz üzərimə götürməli oldum. O vaxt biz çox gərgin işləyirdik və özümüzün dəNaxçıvanda çoxlu problemlərimiz var idi. Ancaq eyni zamanda, o zaman Qarabağın vəziyyəti də məni narahatedirdi".

Heydər Əliyevin 25 fevral 1997-ci il verdiyi № 498 qərar nəticəsində, hər il fevralın 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan olunur. Ümummilli lider Heydər Əliyev Xocalının o dövrdəki ölkə rəhbərliyi tərəfindən başlı-başına qalmasına kəskin etiraz bildirərək deyirdi: "Ozamankı iqtidarın Azərbaycanın milli müstəqilliyinə və xalqımıza qarşı xəyanətkar mövqeyi, öz konstitusion vəzifə borcuna cinayətkar laqeydliyi, ardı-arası kəsilməyən siyasi hakimiyyət oyunları, respublikada baş alıb gedən anarxiya və başıpozuqluq, ayrı-ayrı siyasətbazların məkrli şəxsi ambisiyaları bu tarixi faciənin törədilməsinə birbaşa şərait yaratmışdır. Uzun müddət dörd tərəfdən düşmən əhatəsində taleyin ümidinə buraxılmış vətəndaşlarımızın imdad dolu harayı qulaqardına vurulmuş, Xocalının xilas olunması üçün real imkanların mövcudluğuna baxmayaraq, günahsız əhali məqsədyönlü şəkildə bu milli qırğına sürüklənmişdir. Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır".

**Günel MƏLİKLİ**
**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının professoru**

**(Ardı gələn sayımızda)**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** IX əsrdə Azərbaycanda xalq azadlıq hərəkatı.

**Suallar:**

**1. IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı.**

**2. Xürrəmilərin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.**

**3. Xürrəmilər hərəkatının əhəmiyyəti.**

### IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında güclü bir feodal dövləti meydana gəldi. Asiyada, Afrikada və Avropada İslam dinini yaymaq siyasəti yeridən ərəblər İranın Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular.

VIII əsrin ortalarında Əməvilər sülaləsinin siyasətinə qarşı Xilafətin mərkəzində və asılı ölkələrdə, o cümlədən Azərbaycanda da mübarizə kəskinləşdi. Xilafətin soyğunçu vergi siyasəti və məmurların özbaşınalığı, dəhşətli istismar və hüquqsuzluq, yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, güclü ərəbləşdirmə siyasəti və başqa səbəblər əhalinin vəziyyətini ağırlaşdırmaqla yanaşı, ümumxalq qəzəbini coşdururdu. Azərbaycanda çıxışlar 748-752-ci illərdə geniş vüsət aldı. Üsyanda əhalinin bütün təbəqələri iştirak edirdilər və onlara yerli feodallar başçılıq edirdilər. Ərəblərə qarşı 748-ci ildə Beyləqanda başlamış ilk üsyan tezliklə digər vilayətləri, xüsusilə Bərdəni və Ərdəbili əhatə etdi. Xalq hərəkatı Azərbaycanın digər əyalətlərini və bütün Ön Qafqazı bürüdü. 752-ci ildə üsyan amansızlıqla yatırıldı. Lakin VIII əsrin 2-ci yarısında Azərbaycanda Xilafətə qarşı çıxışlar yenidən gücləndi.

Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri ərəb xilafətinə qarşı xürrəmilər (qədim pəhləvi dilində əbədi od, günəş) hərəkatıdır. Onların şüarı torpağı və istehsal vasitələrini hakim təbəqənin asılılığından xilas etmək idi. Xürrəmilər sosial bərabərlik uğrunda mübarizə aparır, bütün təbəqələrdən olan gənclər üçün istisnasız kəbin hüququ azadlığı, maddi nemətləri insanlar arasında bərabər bölüşdürmək kimi tələbləri irəli sürürdülər. Xürrəmilər Azərbaycanın istiqlaliyyətini bərpa etmək, Vətəni yadellilərdən qurtarmağa çalışırdılar.

Xürrəmilərin ərəb xilafətinə qarşı mübarizənin birinci mərhələsini 748-816-cı illəri (Cavidanın üsyana rəhbərlik etdiyi və ona qədərki dövr), II dövrü 816-837-ci illəri (Babəkin üsyana rəhbərliyi öhdəsinə götürdüyü tarixdən Bəzz qalasının süqutuna qədər) və Xürrəmilər hərəkatından sonrakı dövr 838-840-cı illəri (Təbəristanda Karinlər sülaləsindən olan son əmir Məzyərin, ya da Mahyədigə ibn Karin ibn Vanda-Hürmüzün rəhbərliyi ilə üsyan və məzdəkilər hərəkatı) əhatə etmişdir.

### Xürrəmilərin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə

Xürrəmilərin ərəblərə qarşı azadlıq mübarizəsi 61 il davam etmişdir. Bu mübarizənin xeyli hissəsinə Bəzz qalasının sahibi Cavidan rəhbərlik etmişdir. Xürrəmilər Cavidanın rəhbərliyi altında xilafətə qarşı iki dəfə - 778 və 808-ci illərdə üsyan etmişlər. 808-809-cu illərdə Azərbaycanda Abbasi üsuli-idarəsinə qarşı yönəldilmiş və yüz mindən artıq adamın qoşulduğu üsyanın yatırılmasına ərəb sərkərdəsi Abdulla ibn Malikin başçılığı altında on minlərlə atlı göndərildi. Üsyan amansızlıqla yatırıldı, üsyançıların çoxu öldürüldü, əsir alınmış kişiləri xəlifə Harun ər-Rəşidin göstərişi ilə öldürdülər, qadın və uşaqları isə qul kimi satdılar. Uğursuzluqla nəticələnməsindən sonra xürrəmilərin Xilafətə qarşı çıxışları ara verdi. Xürrəmilərin rəhbərləri olan Cavidan və Əbu İmran bu zaman ədavətə başlamış, aralarındakı münasibətləri aydınlaşdırmaqla məşğul olmuşdular. 816-cı ildə yerli feodal Əbu İmranla döyüşdə Cavidan ağır yaralanaraq aldığı yaradan öldü. Cavidanın ölümündən sonra xürrəmilərin hərəkatına onun köməkçisi Babək rəhbərlik edir. Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi idi.

Babək 798-ci ildə (bəzi mənbələrə görə 795-ci ildə) Ərdəbil yaxınlığında Bilalabad kəndində anadan olmuşdur. Babək gənc yaşlarında bir neçə il çobanlıq etmiş, iki il Təbrizdə sənətkar yanında şagird olmuş, sonra Cavidanla rastlaşıb xürrəmilərin paytaxtı Bəzzə getmişdi.

Babək xürrəmilər icmasında rəhbərliyi qəbul edən zaman onun tərəfdarlarının sayı kifayət qədər çox deyildi. O, xürrəmilərə silah paylayıb göstəriş verdikdən sonra əlverişli məqam çatana kimi gözləmələrini tapşırdı. Həmin müddətdə Babək öz adamlarını Azərbaycanın hər tərəfinə göndərərək ölkəni xilas etmək üçün onları ərəblərə qarşı azadlıq mübarizəsinə çağırdı. Ölkənin hər tərəfindən minlərlə insan Babəkin bayrağı altında toplandı. Bəzi mənbələrə görə, Babəkin ordusunda təkcə atlılar 20 min nəfər idi. Azadlıq ordusunun əsas hərəkətverici qüvvəsini kəndlilər təşkil etsə də, orada şəhər yoxsulları, sənətkarlar, orta və xırda feodallar, əhalinin müxtəlif təbəqələrinə mənsub adamlar da az deyildi.

Xürrəmilər xilafət orduları üzərində parlaq qələbələr çalaraq Azərbaycanı onlardan təmizlədikcə azadlıq mübarizəsinə qoşulanların sayı artırdı. Azərbaycanın cənubunda Babək tərəfdarlarının sayı artıq 300 min nəfərə çatırdı.

819-cu ildə xəlifə xürrəmilərə qarşı ilk nizami ordu göndərdi. Xürrəmilər düşməni məğlub edərək, Bərdəni, Beyləqanı, Qarabağı, Arranın bir sıra əyalət və şəhərlərini azad etdilər. Babəkin əsas tərəfdarları (Z.Bünyadovun qənaətinə görə), ermənilərdən fərqli olaraq, alban knyazları idi. IX əsrin 20-ci illərinin sonuna doğru azadlıq müharibəsi genişlənərək Xilafəti sarsıtdı. Göndərilən güclü ərəb ordusu iki il hazırlıqdan sonra 829-cu il iyunun 3-də Həşdadsər dağında xürrəmilərlə həlledici savaşı başladı. Məqsəd Bəzz qalasını ələ keçirmək idi. 150 minlik ərəb ordusundan 30 min nəfəri məhv edildi. Xəlifənin sevimli sərkərdəsi Məhəmməd əl-Tusi öldürüldü. Bu, ərəb orduları üzərində xürrəmilərin 5-ci qələbəsi idi.

IX əsrin 30-cu illərinin əvvəlləri azadlıq mübarizəsinin ən uğurlu dövrü idi. Üsyançılar xilafəti lərzəyə salmışdılar. 833-cü ilin sonunda Həmədan şəhəri yaxınlığında Xürrəmilər ilk dəfə ağır məğlubiyyətə uğradılar. Onların itkisi 60 mindən 100 minə qədər idi. Xəlifə Bizansla müharibəni dayandıraraq dövlətin fəaliyyətini, bütün ordunu, maddi və hərbi sursatı xürrəmilərə qarşı yönəltdi. Orduya göndərilən ərzağın, silahın və pulun çatdırılması üçün tədbirlər gördü. 835-ci ildə xəlifə Mötəsim məşhur sərkərdə Afşin Heydər ibn Kavusu xürrəmilərə qarşı döyüşən ərəb ordusunun baş komandanı təyin etdi. Türk mənşəli olan Afşin öz qərargahını xürrəmilərin istehkamına yaxın olan Bərzəndə köçürdü və əks kəşfiyyatı gücləndirdi. Kəşfiyyat məlumatı toplamaq, xürrəmilər arasında təfriqə salmaq, onların ən yaxşı sərkərdələrini aradan götürmək gündəlik işə çevrildi.

Azadlıq müharibəsinin illərlə uzanması və geniş əraziləri əhatə etməsi xürrəmilərdə rəhbərliyin işini çətinləşdirirdi. Əhali uzun sürən müharibədən yorulmuşdu. Düşmənə isə müntəzəm olaraq yeni qüvvələr gəlirdi. Afşinin tədbirlərindən qorxuya düşən yerli iri feodallar, Babəkin sadiq tərəfdarları və müttəfiqləri Səhl İbn Sumbat, İbn Bəis, Əbu Musa və b. tədricən ondan uzaqlaşdılar. Xəyanət nəticəsində Babəkin cəsur sərkərdəsi İsma əsir alındı, 836-cı ildə isə daha bir sərkərdə - Tərxan öz evində öldürüldü. Müharibə uzandıqca qüvvələr nisbətindəki fərq ərəblərin xeyrinə dəyişirdi. Buna baxmayaraq, xürrəmilər 836-cı ildə Həşdadsər dağı yaxınlığında döyüşdə qələbə çaldılar. 837-ci ildə xəlifə Afşinin köməyinə iki böyük ordu göndərdi. Həmin ilin yayında Afşinin qoşunu Bəzz qalasını mühasirəyə aldı.

Azadlıq müharibəsinin ilk dövründə, üsyan sürətlə genişləndiyi şəraitdə mübarizəyə qoşulan, onları silahla, ərzaqla, pulla təmin edən yerli feodallar hərəkatın müəyyən məqamında mülk və imtiyazlarını itirəcəklərini güman edərək mübarizədən uzaqlaşdılar. Bununla belə, təcrübəli sərkərdə olan Babək ağıllı taktika ilə düşmənin planlarını pozur və onları çıxılmaz vəziyyətə salırdı.

Ərəb sərkərdəsi Afşin Babəkə sülh danışığına başlamağı təklif edərək onu inandırmağa çalışırdı ki, bağışlanması haqqında xəlifədən fərman alacaq. Lakin Babək əqidəsindən dönməyərək vətənin istiqlaliyyətini şəxsi xoşbəxtliyinə qurban vermədi. Xəlifənin təklif etdiyi imtiyazları və hədiyyələri xalqına xəyanət kimi qiymətləndirdi. Belə olduqda həlledici döyüş labüd idi və 26 avqust 837-ci ildə baş vermiş son döyüşdə xürrəmilər məğlub oldu. Daha yaxşı silahlanmış və təchiz olunmuş ərəblər əlverişli vaxtda Babəkin ordusu üzərinə hücum etdilər. Bəzz qalasını hər tərəfdən mühasirəyə alan ərəblər qala divarlarını dağıtmaq üçün daş atan mancanaqlardan və neftlə isladılmış oxlardan da bacarıqla istifadə edirdilər. Qalanın müdafiəsinə Babəkin etibarlı və cəsur sərkərdəsi Adin başçılıq edirdi. Bütün günü davam edən qanlı döyüşdə düşmən əsgərlərindən dəfələrlə az olmalarına baxmayaraq, xürrəmilər misilsiz rəşadət göstərirdilər. Onların qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi. Vətənin cəngavər oğulları müqəddəs torpağımız uğrunda şəhid olmağı şərəf sayırdılar. Bəzz döyüşü orta əsrlər müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlərdəndir. Bu döyüşdə ərəblərdən 100 min nəfər, xürrəmilərdən 80 min nəfər həlak oldu. Afşinin göstərişi ilə Bəzz qalası dağıdıldı. Qala müdafiəçilərindən 7600 nəfər əsir götürüldü.

Bəzzin süqutundan sonra Babək qardaşı Abdulla ilə birlikdə köhnə müttəfiqi Səhl ibn Sumbat tərəfindən xəyanət yolu ilə tutularaq ərəblərə təhvil verildi. 838-ci il martın 14-də xəlifə Mötəsimin hökmü ilə Babək Samirə şəhərində edam edildi. IX əsrin 2-ci yarısından etibarən xilafətdən asılı ölkələrdə, o cümlədən Azərbaycanda bir sıra müstəqil dövlətlər meydana gəldi. Xilafətə tabe olan iri dövlətlərdə milli-azadlıq hərəkatları başlandı.

### Xürrəmilər hərəkatının əhəmiyyəti

Müvəffəqiyyətsizliklə nəticələnməsinə baxmayaraq, Babək hərəkatı bütün xilafəti lərzəyə salmış, Şərqdə ərəb hökmranlığına ağır zərbə vurmuşdu. Babək hərəkatı dövründə xilafətin təqribən 500 min əsgəri məhv edilmişdi. Xilafətin əsasını sarsıdan və onun dağılmasını xeyli sürətləndirən Babək hərəkatı qonşu xalqların azadlıq mübarizəsini xeyli yüngülləşdirdi və onların ərəb əsarətindən azad olmasını asanlaşdırdı. Xürrəmilərin məğlubiyyəti və Babəkin edamı Azərbaycanda, eləcə də xilafətin digər vilayətlərində ərəblərə qarşı mübarizəni dayandırmadı. 838-39-cu illərdə Təbəristanda Məzyərin başçılığı ilə üsyan başlandı. Üsyançılar xürrəmilərin şüarları ilə çıxış edirdilər. Babək hərəkatının məğlubiyyətindən sonra Arranda (Əbu Musanın başçılığı ilə Ktic qalası) xilafət əleyhinə yeni üsyanlar baş verdi.

Orta əsrlərdə baş verən digər kəndli müharibələrindən fərqli olaraq bu müharibə hər şeydən öncə istiqlaliyyət uğrunda azadlıq müharibəsi idi. Mübarizədə xalqın imtiyazlı təbəqəsinin dönüklüyü, ərəblərə nisbətən daha cəsur və döyüşkən türk sərkərdələrinin eyni və digər mənşəli üsyançılara qarşı səfərbəriliyə alınması, ən başlıcası ermənilərin xəyanəti və ərəblərə kömək etməsi azadlıq müharibəsinin məğlubiyyətlə nəticələnməsinə səbəb oldu. Ağır məğlubiyyətə baxmayaraq, xürrəmilər hərəkatı digər asılı xalqların azadlıq mübarizəsinə təkan verməklə yanaşı, Azərbaycanda xalqın şüurunda və əməlində əsrlərlə yaşadı. Üsyançılar və onların rəhbəri Babəkə nifrət hissi bəsləmələrinə baxmayaraq, hərəkatın təsirini və əzəmətini ərəb tarixçiləri də etiraf etmişlər. İbn Təğriberdi adlı tarixçi yazırdı ki, "Babək öz zəmanəsinin qəhrəmanı və xilafəti dəhşətə gətirən bir igiddir".

VII əsrdə Azərbaycanda islam dininin qəbul olunması Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri idi. Ölkədə dini birliyin yaranması bütün Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə, əlaqələrin genişlənməsinə səbəb oldu. Bununla belə, təkallahlı dinlərə sitayiş edənləri müsəlmanlaşdırmaq islamın prinsiplərinə zidd olduğu üçün ərəb xilafəti dövründə Albaniyanın xristian əhalisi islam dininin təsir dairəsindən kənarda qaldı. Beləliklə, ölkədə dini ayrılıq baş verdi. Çoxluq təşkil edən və ölkənin bütün ərazisinə yayılmış olan müsəlman əhali, həmçinin azlıq təşkil edən və əsasən Şimali Azərbaycanın qərb bölgələrində yaşayan xristian albanlar. Zaman keçdikcə Qərbi Azərbaycanın, o cümlədən Qarabağın dağlıq bölgələrinin xristian əhalisi qriqoryanlaşdırılmağa başlanılmış və bu ayrı-ayrı illərdə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sağalmaz yaralar vurmuşdur.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını XX yüzilliyin sonunda məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən rəşadətli Azərbaycan Ordusu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasəti nəticəsində uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqların işğaldan azad etməsi, ərazi bütövlüyün təmin etməsi, dövlətçilik ənənələrinin bərpa edilərək inkişaf etdirilməsi şanlı tariximizə qızıl hərflərlə qeyd ediləcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Tovuz rayonu istiqamətində mövqelərimiz atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin bölmələri fevralın 18-i saat 22:30-dan etibarən dövlət sərhədinin Tovuzqala rayonunun Güləli yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Muncuqlu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini heç bir səbəb olmadan atıcı silahlardan fasilələrlə atəşə tutub.

Ordumuzun qeyd olunan istiqamətdə yerləşən bölmələri tərəfindən müvafiq tədbirlər görülüb.

Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

## Hərbi Hava Qüvvələrində təlimlər keçirilib



Döyüş hazırlığı planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) təlim uçuşları keçirilib.

Senariyə əsasən, MiQ-29 tipli təyyarələrlə kiçik və orta hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimlər zamanı pilotlar tərəfindən şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınmaqla, onun yerüstü hədəflərinin koordinatlarının təyin edilməsi və hava döyüşlərinin aparılması üzrə tapşırıqlar məşq olunub.

Təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

## Mühəndis-istehkam bölmələrində praktiki məşğələlər keçirilir

***2022-ci ilin fəaliyyət planına uyğun olaraq Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin təlim kursları keçirilir. Kurs heyətinin bölük komandiri kapitan Fəzail Əliyev şəxsi heyətin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələlərin səmərəli və plana uyğun həyata keçirildiyini bildirdi.***





"Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Vətən müharibəsində azad edilən torpaqlarımızda yolların, yaşayış məntəqələrinin və digər ərazilərin minalardan, partlamayan sursatlardan təmizlənməsi işləri davam etdirilir. Əlavə olaraq nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təşkili üçün yollar qar örtüyündən təmizlənir. Dağlıq və çətin relyefdə yerləşən bölmələrimizə yeni təminat yolları çəkilir. Prosesi sürətləndirmək məqsədilə yeni növ texnika və avadanlıqlardan istifadə edə bilən hərbi qulluqçular hazırlanır".

Zabit təlim haqqında daha ətraflı məlumat verərək bildirdi ki, ixtisasartırma və təkmilləşdirmə kursları Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin peşəkar mütəxəssisləri tərəfindən keçirilir. "Şəxsi heyət nəzəri və praktiki məşğələlərdən ibarət kompleks dərslərdə iştirak edir, yeni mühəndis texnikaları ilə tanış olur, onların taktiki-texniki xüsusiyyətlərini və istismar qaydalarını öyrənir. Yüksək dağlıq ərazidə və çətin relyefdə hərəkət, manevr, daşınma və təxliyə yollarının hazırlanması, çəkilməsi və lazımi vəziyyətdə qorunub saxlanılması mövzularını mənimsəyirlər. Mühəndis-istehkam təyinatlı tapşırıqların yerinə yetirilməsi üçün bütün bacarıqlarını səfərbər edirlər".

Kapitan Fəzail Əliyevlə



söhbətimiz əsnasında ixtisas üzrə müəllim və təlimatçıların fəaliyyətini izlədik. Onlar şəxsi heyətə təlimat verir, təhlükəsizlik qaydalarını diqqətə çatdırır, mühəndis qurğularından istifadə qaydalarını izah edirdilər.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Kamran Səfərli işğaldan azad edilən ərazilərimizdə dislokasiya olunan bölmələrdə hərtərəfli mühəndis təminatı üzrə tədbirlərin icrasının getdiyini bildirdi. "Orada mühəndis işləri davam etdirilir. Kursun məqsədi həmin ərazilərdə minalardan təmizləmə işlərinin sürətləndirilməsi və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi istiqamətində aparılan işlərin ən yüksək səviyyəyə çatdırılmasıdır. Təhsil prosesi çərçivəsində kursantlara ən yeni texnikalar üzrə dərslər keçirilir, nizam-intizama xüsusi diqqət yetirilir, ekskavator, qreyder, buldozer və digər texnikalar öyrədilir. Kursu bitirdikdən sonra şəxsi heyət bölmələrə geri dönüb, bu istiqamətdə yüksək peşəkarlıqla xidmətini davam etdirəcək", - çavuş Kamran Səfərli dedi.

Təlim kursunda həvəslə iştirak edən kursantlarla da həmsöhbət oldum. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İkram Ələsgərov bildirdi ki, məşğələlər Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı döyüş təcrübəsindən yararlanaraq keçirilir. "Müəllim və təlimatçı heyətimiz, komandirlərimiz Vətən müharibəsində iştirak ediblər. Bizə döyüşlər haqqında danışır, öyrəndiyimiz texnikaların müharibədə necə tətbiq edilməsi haqqında məlumat verirlər. Mühəndis texnikaları ilə nəqliyyat üçün yollar çəkilir, döyüş texnikaları üçün dayaqlar düzəldilir və əsgərlərimizin mənfur düşmən gülləsindən müdafiə olunması üçün səngərlər qazılmasından bəhs edirlər. Biz böyük həvəslə onlara qulaq asır, biliklərə yiyələnirik".

Kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikatlar təqdim olunacaq.

**Leytenant
İbrahim MƏMMƏDBƏYOV
"Azərbaycan Ordusu"**

## Xəbərlər: hadisələr, faktlar

### Türkiyə ilə Yunanıstanın müdafiə nazirləri arasında görüş olub



Türkiyənin milli müdafiə naziri Hulusi Akar Brüsseldə keçirilən NATO-nun müdafiə nazirlərinin toplantısı çərçivəsində Yunanıstanın müdafiə naziri Nikolaos Panagiotopoulos ilə görüşüb.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Qeyd edilib ki, görüş NATO-nun qərargahında baş tutub. İkitərəfli görüş zamanı hər iki nazir ölkələrinin NATO-ya üzv olmasının 70 illiyi münasibətilə qarşılıqlı təbriklərini çatdırıblar.

Səfər çərçivəsində Hulusi Akarın Böyük Britaniyanın, Latviyanın, Rumıniyanın və Şimali Makedoniyanın müdafiə nazirləri ilə də görüşləri olub. Bu görüşlər zamanı ikitərəfli və regional müdafiə, təhlükəsizlik və müdafiə sənayesinə aid məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

### NATO Rumıniyada yeni döyüş qrupunu yerləşdirir



NATO-nun müdafiə nazirləri Rumıniyada alyansın yeni döyüş qrupunu yerləşdirmək qərarına gəliblər. Bu barədə NATO-nun baş katibi Yens Stoltenberq Brüsseldə NATO-ya üzv ölkələrin müdafiə nazirlərinin görüşünün birinci gününün yekunları üzrə mətbuat konfransında deyib.

"Nazirlər şərq və cənub-şərq hissələrində, xüsusən Rumıniyada yeni döyüş qruplarının yerləşdirilməsi də daxil olmaqla, yeni variantları nəzərdən keçirmək qərarına gəliblər. Fransanın bu qrupa rəhbərlik etmək təşəbbüsünü alqışlayıram", - o deyib.

Gələcək döyüş qruplarının konfiqurasiyası, ölçüsü və vaxtı ilə bağlı suala o, belə cavab verib: "Son qərar hələ verilməsə də, Rumıniya NATO-nun döyüş qrupunu qəbul etməyə hazır olduğunu elan edib, Fransa ona rəhbərlik etməyə hazır olduğunu bəyan edib. Biz bunu müsbət qarşıladıq və indi hərbi qərargahımızın tövsiyələrini gözləyəcəyik".

### Rusiya Xəzər dənizində təlimlər keçirir



Rusiyanın Xəzər donanması bu dənizdə təlimlər keçirir.

Donanmanın 20-yə yaxın gəmisi Mahaçqaladan dənizə çıxaraq planda nəzərdə tutulmuş təlimlərdə iştirak edir.

Rusiya Hərbi Dəniz Donanması bu ilin yanvar-fevral aylarında ölkənin su sərhədlərini qorumaq üçün silsilə təlimlər keçirib.

### Belarus XİN: Təlimlərdən sonra Belarusda bir nəfər də rusiyalı hərbçi qalmayacaq



Birgə təlimlər sona çatdıqdan sonra Belarus ərazisində Rusiyanın bir nəfər də olsun hərbçisi və bir ədəd belə hərbi texnikası qalmayacaq.

Bu barədə Belarusun xarici işlər naziri Vladimir Makey jurnalistlər üçün təşkil olunan mətbuat konfransında deyib.

"Təlimlər İttifaq dövlətinin qüvvə və vasitələrinin döyüş hazırlığını yoxlamağa imkan verir. Onların Belarus ərazisində keçirilməsi tam əsaslandırılıb. Biz NATO-nun qərb sərhədlərimizdə və Ukraynada fəallığını görürük. Bu, qərbli tərəfdaşlarımızın həyata keçirdiyi tədbirlərə cavabımızdır", - deyə Vladimir Makey bildirib.

Fevralın 10-da başlayan Belarus-Rusiya birgə təlimlərinin fevralın 20-də başa çatacağı bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Ovqat*

# "Müqəddəs amala xidmət etməkdən qürur duyuruq"



*Vətənpərvər olmaq öz şəxsi maraqlarını Vətən yolunda qurban verməyə hazır olmaq deməkdir. Vətənə bağlılıq hissi hər bir fərdi hərbi xidmət zamanı daha da mübariz və mətin əsgərə çevirir. Əyninə hərbi mundir geyinən hər kəs, Vətəni göz bəbəyi kimi qoruyacağının və bu yolda canını və qanını əsirgəməyəcəyinin andını içir.*

İşğaldan azad edilmiş tarixi torpaqlarımızda zabit Mirsadiq Zeynalovla həmsöhbət olduq. "Tarixən qəhrəman oğullar yetişdirmiş məmləkətimizin bu gün də kifayət qədər vətənpərvər müdafiəçiləri var. İlkin vətənpərvərlik hissi ailədə formalaşsa da, xidməti dövrdə daha da möhkəmlənir. Çünki vətənpərvərlik sözünün kökü olan "Vətən"i qorumaq milli ləyaqətimizi, azadlığımızı, müstəqilliyimizi və ərazi bütövlüyümüzü qorumaqdır. Ümummilli lider Heydər Əliyev, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də çıxışlarında gənclərin vətənpərvər ruhda böyüməsinin və yüksək biliklərə malik olmasının vacibliyini hər zaman vurğulayıb. Bunun üçün də bölməmizdə döyüş hazırlığı və mənəvi-psixoloji hazırlıq daim diqqət mərkəzində saxlanılır, keçirilən dərslər Azərbaycan əsgərinin vətənpərvər ruhda xidmətinə zəmin yaradır," - deyə zabit Mirsadiq Zeynalov bildirdi.

Zabit söhbət əsnasında yüksək mənəvi-psixoloji hazırlığa malik əsgərlərin xidmət zamanı bir-birilərinə dəstək olduqlarını vurğuladı. Bu da qarşılıqlı münasibətlərin formalaşmasında mühüm rol oynayır. Ataların bir sözü var: "Dostla dağı tez aşmaq olar". Əsgərlərimiz də bunun fərqindədirlər. Hər biri dost, qardaşdırlar. Zabit bölükdə xidmət edən əkiz qardaşlar - Zinhar və Tacirin xidmət yoldaşları ilə mehribanlığını vurğuladı. Fürsətdən istifadə edib Vətənə övladlıq borcunu ödəyən əkizlərlə həmsöhbət oldum. Tacirdən vətənpərvərliyin onun üçün nə demək olduğunu soruşdum. "Vətənpərvərlik - Vətənə olan ülvi məhəbbətdir. O məhəbbət ki, ana sevgisi ilə bir tutulur. Ana hər övlad üçün fərdi olsa da, Ana Vətən vahid anlayışdır. Ana Vətən vahid olmaqla yanaşı, elə ümdə, elə müqəddəs anlayışdır ki, bu günə qədər onun varlığı üçün neçə oğul sinəsini sipər edib. 44 günlük haqq savaşımız zamanı qardaşımla hələ orta məktəbdə oxuyurduq, baş verənləri izlədikcə cəbhədə olmaq, qardaşlarımızla düşmənə qarşı bir amal uğrunda savaşmaq istəyirdik. O günlərdə hamı kimi, biz də Azərbaycan əsgəri ilə bir nəfəs alırdıq, ürəyimiz döyüş meydanında onlarla birlikdə döyünürdü. Bu gün qələbəni bizə yaşadan oğullarımız sayəsində azad olunan Vətən torpaqlarında xidmət etmək qürurvericidir. Adını tarixə yazan, torpağı canı ilə azad edərək şəhadətə yüksələn şəhidlərimizi unutmamalıyıq. Məhz onlar bütün Azərbaycan gəncliyi üçün ən ali vətənpərvərlik nümunəsi göstərmişlər".

Tacirlə söhbəti başa çatdırdıqdan sonra növbəti müsahibim Zinhar oldu. "Hər bir valideyn üçün başucalığıdır ki, övladını əynində hərbi forma, Vətənə xidmət edən görsün", - Zinhar söhbətə başladı. - Anamın bizi xidmətə yola salarkən keçirtdiyi duyğuları sözlə ifadə etməkdə çətinlik çəksəm də, üzündəki məğrurluq və məğrurluqdan yaranan məmnunluq hissini dərindən duyurdum. Qarşımıza qoyduğumuz məqsəd də ondan ibarətdir ki, Vətəni layiqincə qoruyaq, nümunəvi xidmətimizlə valideynlərimizi daim sevindirək və onların yanına əsl Vətən övladı olaraq qayıdaq. Bu gün qardaşım Tacirlə birlikdə Vətənin müdafiəsindəyik və müqəddəs amala xidmət etməkdən qürur duyuruq. Xidmətimizin bir ilinin tamamına az müddət qalmasına baxmayaraq vaxtın necə gəlib keçdiyini heç hiss etmirik. Uşaqlıqdan ailəyə bağlı olmuşuq və bu gün də komandirlərimizin diqqət və qayğısı sayəsində bölməmizdə isti ailə münasibəti mövcuddur.

Bu günə qədər müsahibimiz olan minlərlə Vətən oğullarımızın hər birinin dilində bir fikir dəyişməz olub - Qürur duymaq.... (və ya fəxr etmək). Qürur duymaq hissi hər bir vətənpərvər gəncin içindən gələn bir sözdür və səbəbi də bəllidir - yüksək ləyaqət, milli mənəviyyat və soykökünə bağlılıq. Sevindirici haldır ki, 44 günlük Vətən müharibəsində qazanılan Böyük Qələbəni xalqına bəxş edən Azərbaycan əsgəri bu gün dünya üçün vətənsevərlik nümunəsidir. Tarixi zəfəri qanı ilə, canı ilə, yuxusuz günləri ilə, kilometrələrcə qət etdiyi məsafələrlə, dəmir iradəsi ilə qazandıran oğullarımız hər birimizin başının tacı, bugünkü firavanlığımızın səbəbkarıdırlar. Budur, əsl vətənpərvərlik, budur, xalqa məhəbbət, Ali Baş Komandanına və Hərbi anda sədaqət. Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Vətəndaş" şeirində dediyi kimi:

Səni də, məni də böyüdən
Vətən,
Sənə də anadır,
mənə də ana!

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Şahmatçımız Eltac Səfərli onlayn "Titled Tuesday Blitz" turnirində ikinci yeri tutub



Azərbaycan şahmatçısı Eltac Səfərli onlayn "Titled Tuesday Blitz" turnirində uğurla çıxış edib. Təmsilçimiz 11 turdan 9,5 xal toplayıb. O, bu nəticə ilə ikinci sırada qərarlaşıb. Onunla eyni xalı toplayan rusiyalı Vladimir Fedoseyev əlavə göstəricilərə görə turnirin qalibi olub.

## Azərbaycan idmançısı "World Indoor Tour Silver Level" turnirində iştirak edib



Fransanın Lievin şəhərində atletika üzrə keçirilən yarışda (World Indoor Tour Silver Level) Azərbaycan idmançısı Nazim Babayev iştirak edib. Üçtəkanla tullanma növündə çıxış edən millimizin üzvü 16,39 metr nəticə göstərərək beşinci olub.

Xatırladaq ki, N.Babayev fevralın 14-də Fransada keçirilən digər turnirdə 16,27 metr nəticə göstərməklə bürünc medal qazanıb.

## Azərbaycan millisinin sabiq futbolçusu Nurlan Novruzov Nepal çempionu olub

Futbol üzrə Azərbaycan millisinin sabiq hücumçusu Nurlan Novruzov Nepal çempionu olub. İyirmi doqquz yaşlı futbolçu bu uğura "Maçhindra" komandasının heyətində imza atıb.

Sözügedən komanda sona iki tur qalmış "Satdobato"nu 1:0 hesabı ilə üstələyib. N.Novruzov qarşılaşmada qələbə qoluna imza ataraq komandasını çempion edib.

N.Novruzov 2021-ci ildən bu komandanın formasını geyinir. O, daha əvvəl Nepalda "Lalitpur Siti"nin şərəfini qoruyub.

## Məhəmməd Salah UEFA Çempionlar Liqasında yeni uğura imza atıb



İngiltərənin "Liverpul" komandasının futbolçusu Məhəmməd Salah UEFA Çempionlar Liqasında yeni uğura imza atıb. 30 yaşlı hücumçu buna İtaliyada "İnter"i 2:0 hesabı ilə məğlub etdikləri səkkizdəbir final mərhələsinin ilk oyununda nail olub.

Matçın 83-cü dəqiqəsində ikinci qola imza atan misirli forvard qitənin bir nömrəli klub turnirində 50-ci görüşündə 33-cü dəfə fərqlənib. Salah bu göstəriciyə görə yalnız iki oyunçudan geri qalır.

Almaniyanın "Bavariya" komandasında çıxış edən Robert Levandovski 50-ci matçında 36-cı, hazırda İngiltərə "Mançester Yunayted"ində oynayan Kriştianu Ronaldu isə 51-ci qolunu vurmuşdu.

Qeyd edək ki, Məhəmməd Salah cari mövsüm "Liverpul"da bütün turnirlərdə 29 oyuna çıxıb, 24 qol və 9 məhsuldar ötürmə ilə yadda qalıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Azərbaycanla bağlı maraqlı məlumatlar

✍ Yer üzü sirlər və maraqlı məlumatlarla zəngindir. Təbii ki, bunların hamısı haqqında informasiyamız yoxdur. Aparılan araşdırmalar nəticəsində ortaya çıxan maraqlı faktları bilmək maraqlıdır.

✍ Yanardağ deyilən odlu yerdən püskürən alovun mənbəyi çox böyük yeraltı qaz yataqlarıdır. Bakının yaxınlığında yerləşən bu dağ əsrlər boyu səyyahları, işğalçıları özünə cəlb edib. XIII əsrdə tədqiqatçı Marko Polo burada gördüyü əsrarəngiz yanğınlar barədə qeydlər aparıb.

✍ "Neft daşları" qəsəbəsi əvvəlcə Xəzər dənizində yeganə buruq vışkası və bir neçə piyada cığırı şəklində yaradılmışdı. Bu gün isə o, metal dirəklər üzərində ucaldılmış bütöv bir şəhərdir. Burada mağazalar, mədəniyyət mərkəzləri və mehmanxanalar var.

✍ Azərbaycanda 400-dən çox palçıq vulkanı var. Dünyanın heç bir ölkəsində bu qədər vulkan yoxdur. Vulkanlar püskürəndə alovun hündürlüyü 1 kilometrə çatır. Sakit vəziyyətdə vulkanlar qabarcıqlar şəklində zərərli qazlar buraxır.

✍ Milli çövkan oyunu polonu xatırladır. Oyunçular at belində, əllərində ucu əyri ağacla oynayırlar. Polo ilə oxşarlıq yalnız bundan ibarətdir. Çövkan oyunu musiqi ilə müşayiət edilir və bütün oyunçuların əynində milli kostyumlar - genbalaq şalvar, tikməli nazik köynək, başlarında papaq olur.

✍ İsmayıllı rayonundakı Nikitin adına kolxoz Azərbaycan üçün həqiqətən nadir hadisədir. 1996-cı ildə ölkədə aqrar islahat keçirildi, torpaq xüsusi mülkiyyətə verildi. Lakin Nikitin kolxozunun üzvlərinə heç kəs toxunmadı. Bakıda qərara aldılar ki, bu insanlar kollektiv şəraitdə yaşayıblar, qoy bundan sonra da belə yaşasınlar.

✍ Paytaxt Bakını öz qeyri-adi memarlığına və insanların zinət əşyalarına marağına görə çox vaxt Dubayla müqayisə edirlər. Müasir Bakının ən mühüm memarlıq nümunələri Zaha Hadid tərəfindən layihələndirilmiş möhtəşəm Heydər Əliyev Mərkəzi, SOCAR-ın baş ofisinin yerləşdiyi güzgülü göydələn və Azərbaycanın neft və qaz ehtiyatlarının rəmzi olan Alov qüllələridir.

✍ Azərbaycanda xalça muzeyi 2014-cü ildə Bakıda, dəniz sahilində açılıb. Muzeyin binası nəhəng ölçülü bükülü xalça formasında layihələşdirilib. Muzeydə ölkənin bütün guşələrindən gətirilən və bütün dövrlərə aid xalçaları görmək olar. Burada xalçalarla tanışlıq xalça istehsalı prosesinin nümayişi ilə müşayiət edilir.

**Hazırladı:**
**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədov Vüsal Yaşar oğluna məxsus AD № 0043519 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


**Baş redaktorun müavini** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 279
Nüsxə 4673